AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Macarıstanda Təhsil




| | |
|---|---|
| Ümumi məlumat və qəbul qaydaları | 1 |
| Maliyyələşmə | 2 |
| Tələb olunan sənədlər | 3-4 |
| Müraciət forması və tarixlər | 5 |
| Təhsil Nazirliyi ilə əlaqə | 6 |

## Ümumi məlumat

Təqaüd proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 11 noyabr 2014-cü il tarixində imzalanmış İş Proqramına əsasən həyata keçirilir. Proqram Azərbaycan Respublikasının vətəndaşlarına müəyyən olunmuş ixtisaslar üzrə təqaüd hesabına təhsil almaq imkanı yaradır.

Macar dilində ali təhsilə başlamazdan öncə tələbələr Balassi İnstitutunda bir illik hazırlıq kursu keçməlidirlər. İngilis dilində proqramlar üçün müraciət edən tələbələr ev sahibi təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş səviyyəyə ( keçid vasitəsilə tanış ola bilərsiniz) müvafiq ingilis dili biliyinə malik olmalıdırlar.

Proqram çərçivəsində Macarıstan tərəfindən hər il 200 Azərbaycan vətəndaşı üçün aşağıdakı çərçivə əsasında təqaüd ayrılacağı nəzərdə tutulmuşdur:

- tam bakalavr, magistratura təhsil proqramları üzrə
  - kənd təsərrüfatı, su idarəetməsi - 40 təqaüd;
  - təbiət elmləri, davamlı inkişaf - 30 təqaüd,
  - tibb elmləri (“health studies”) - 10 təqaüd;
  - turizm - 40 təqaüd;
  - mühəndislik, informasiya texnologiyaları, texnologiyalar - 30 təqaüd;
  - iqtisadiyyat, biznes və idarəetmə elmləri - 40 təqaüd;
- doktorantura təhsili üzrə
  - istənilən maraq dairəsi üzrə - 10 təqaüd.

İxtisaslara dair ətraflı məlumatla keçiddən tanış ola bilərsiniz.

## Maliyyələşmə

Tələbələr üçün nəzərdə tutulmuş təqaüd aşağıdakı xərcləri əhatə edir:

Macarıstan tərəfindən:

- ödənişsiz təhsil;
- universitet yataqxanasında yaşayış;
- tibbi sığorta;
- aylıq təqaüd

Aylıq təqaüd ev sahibi universitet tərəfindən veriləcəkdir. Mövcud qanunvericiliyə əsasən ümumi olaraq aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Bakalavriat və magistratura proqramları üçün: 40460 Macarıstan forinti
- Doktorantura proqramları üçün: 100000 Macarıstan forinti

Təhsil yerinə gediş-gəliş xərcləri tələbələrin özləri tərəfindən qarşılanır.

**Tələb olunan sənədlər:**

1. Macarıstan Təqaüd Heyətinin elektron müraciət forması (tam şəkildə doldurulmuş, çap olunmuş və namizəd tərəfindən imzalanmış).

   Elektron müraciət formasına dair təlimatla tanış ola bilərsiniz.

**Diqqət! Müraciət formasında namizədlərə seçdikləri ixtisaslar (yalnız ümumi məlumat bölməsində qeyd olunmuş ixtisaslar) üzrə universitetlərin siyahısı təklif olunur. Hər bir namizədin 3 seçim qeyd etmək imkanı vardır;**

2. Avropa İttifaqı CV nümunəsində ( Europass format) doldurulmuş CV (namizədin şəkli əlavə olunmalı, təhsil almaq üçün müraciət etdiyi dildə və ya ingilis dilində hazırlanmalı);
3. Təhsil alacağınız ixtisas və Macarıstanda təhsillə bağlı məqsəd və gözləntiləriniz barədə minimum 1 səhifədən ibarət qısa xülasə (Times New Roman 12 şrifti ilə ingilis və ya macar dilində yazılmış);
4. Namizədin seçilmiş proqrama uyğun dil biliyi səviyyəsi Sertifikatı (müraciət etdiyi ali təhsil müəssisəsinin şərtlərinə cavab verən);
5. Təhsil sənədləri (ingilis və ya macar dilində notarial qaydada tərcümə və təsdiq olunmuş)
   a. bakalavriat təhsil səviyyəsi üçün: orta təhsili bitirmə haqqında sənəd;
   b. magistratura təhsil səviyyəsi üçün: bakalavr diplomu;
   c. doktorantura təhsil səviyyəsi üçün: magistr diplomu;

**QEYD:** sadalanmış ali təhsil sənədlərindən hər hansısa birini (bakalvr və ya magistr diplomu) namizəd xarici təhsil müəssisəsinin məzunu olaraq almışdırsa, həmin sənədin Azərbaycan Respublikası ərazisində tanınması/nostrifikasiyasına dair sənəd.

6. QİÇS, Hepatit A, B, C və ya başqa yoluxucu xəstəliklərin olmamasına dair tibbi arayış (ingilis və ya macar dilində təqdim olunmuş və ya notarial qaydada tərcümə təsdiq olunmuş);
7. Ümumvətəndaş pasportunun şəxs haqqında məlumatlar olan səhifəsinin surəti;
8. Hərbi bilet və ya hərbi xidmətdən möhlət haqqında sənəd;

Doktorantura proqramı üçün müraciət edən namizədlər aşağıdakı sənədləri əlavə olaraq təqdim etməlidir:

9. Tədqiqat işi (minimum 2 səhifə, Times New Roman 12 şrifti ilə təhsil almaq üçün müraciət etdiyi dildə yazılmış);

10. Namizədin əvvəlki və ya hazırki elmi rəhbəri (müəllimi) tərəfindən verilmiş iki ədəd tövsiyə məktubu

QEYD: istisna hallarda aşağıda qeyd olunmuş tələb olunan sənədlərin sonradan göndərilməsi mümkündür:

- orta təhsili bitirmə haqqında sənəd: orta təhsil pilləsində sonuncu yarımillikdə təhsil alanlar üçün;
- bakalavr diplomu: bakalavriat təhsil səviyyəsində sonuncu semestrdə təhsil alanlar üçün;
- magistr diplomu: magistratura təhsil səviyyəsində sonuncu semestrdə təhsil alanlar üçün;
- dil biliyini sübut edən sənəd: müraciət vaxtı dil biliyi sertifikatının nəticəsini gözləyən namizədlər üçün.

Qeyd olunan çatışmayan sənədlər 15 avqustdan gec olmayaraq təqdim olunmalıdır.

**Diqqət! Sadalanmış sənədlərdən hərbi möhlət hüququnu təsdiq edən sənədin tələb olunduğu şəxslər (bakalavriatdan sonrakı təhsil səviyyələri üçün müraciət edənlər), ali təhsil sənədinin Azərbaycan Respublikası ərazisində tanınması/nostrifikasiyasına dair sənədin tələb olunduğu şəxslər (xarici ali təhsil müəssisələrinin məzunları) Təhsil Nazirliyinə yalnız həmin sənədi elektron şəkildə admission@edu.gov.az elektron ünvanına təqdim etməlidirlər. Həmin şəxslərin digər sənədləri və digər bütün namizədlərin sənədlərini elektron şəkildə və ya poçt vasitəsilə Təhsil Nazirliyinə təqdim etmələri tələb olunmur.**

**Seçim prosesində YALNIZ sənədlərini birbaşa olaraq Macarıstan Təqaüd Heyətinin internet səhifəsi vasitəsilə təqdim etmiş şəxslərin namizədlikləri nəzərə alınacaqdır.**

**Müraciət forması və tarixlər:**

1. Namizədlərin elektron müraciət formasını doldurmaları üçün yekun tarix 21.03.2016-cı ildir.
2. Elektron qeydiyyatı düzgün şəkildə tamamlamış və müraciət etdikləri ali təhsil müəssisələrinin ümumi tələblərinə cavab verən namizədlər onlarla fərdi şəkildə keçiriləcək müsahibəyə dəvət olunacaqlar.
3. Müsahibənin dəqiq vaxtı və yeri barədə məlumat namizədə elektron poçt vasitəsilə veriləcəkdir.
4. Hər bir namizədlə keçirilmiş müsahibə 10-15 dəqiqə ərzində davam edir, müsahibədə audio-video çəkiliş aparılır.

   Seçim nəticələrinə dair apellyasiya hüququ yoxdur.
5. Təhsil Nazirliyi tərəfindən namizədliyi təsdiq olunmuş şəxslərin adları Macarıstan Təqaüd Heyətinə təqdim ediləcəkdir. Təqaüd üçün namizədlikləri müsbət qiymətləndirilməyən namizədlər ali təhsil müəssisəsinə qəbul olacağı halda, təhsillərini şəxsi vəsaitləri hesabına davam etdirmək imkanına malik olacaqlar.
6. Təhsil Nazirliyi tərəfindən təklif olunan və təsdiq üçün Macarıstan tərəfinə göndərilmiş namizədlərin sənədləri müraciətlərində qeyd etdikləri ali təhsil müəssisələrinə seçim sıralamasına uyğun olaraq (1,2,3) göndəriləcəkdir.

***Ali təhsil müəssisələrinin seçim qaydaları bir-birindən fərqlənir və qəbul daxili qaydalarla tənzimlənir. Göstərilmiş 3 universitetdən heç birinə qəbul ola bilməyən namizədlərin təqaüd hesabına təhsili mümkün olmur.**

7. Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı Macarıstan Təqaüd Heyətinin yekun qərarının cari ilin iyun ayı ərzində təqdim olunması gözlənilir.

**Təhsil Nazirliyi ilə əlaqə**

Təqaüd proqramı ilə bağlı suallarınızı admission@edu.gov.az elektron poçtuna ünvanlaya bilərsiniz.

Tez-tez verilən suallar barədə keçiddən tanış olmağınız xahiş olunur.